# KİMYA TƏDRİSİNDƏ FƏAL OXU ÜSULLARI

*dosent Abbasov Eyyub Mirzə oğlu, Sadıqova Ülviyyə Eyyub qızı,*
*Əsgərova Ziyafət Asif qızı*
*Gəncə Dövlət Universiteti*

***Xülasə***: *Orta məktəbin yuxarı sinif şagirdləri üçün istifadə edilə biləcək çox müxtəlif fəal oxu üsulları mövcuddur. Bütün bunlar biliyin və ən vacibi qavramanın inkişaf edilməsi məqsədilə mətnin sistematik olaraq sorğulanmasmı həvəsləndirir. Məlumatlar müəyyən kateqoriyalar üzrə növlərə ayrılarsa, layihə üçün kitabxanada konkret məlumatların axtarılması daha daaktivləşdirilə bilər. Mətin əvvəlcədən seçilmiş hissələrindən ilkin axtarış üçün lazım olan dərəcəni məhdudlaşdırmaq üçün istifadə edilə bilər.*

**Açar sözlər:** təhsil sistemi, dərketmə, qabiliyyət, şagird, kloz
Key words: education system, understanding, ability, student, kloz
Ключевые слова: система образования, понимание, способность, ученик, пункт

Fəal oxu üsulları bir çox mərhələlərlə aparılır: praktik tədqiqat, fəal oxu prosesi, məlumat axtarışı, məlumat toplanması, qruplaşdırma və klafıkasiya, qiymətləndirmə və s.

Orta məktəbin yuxarı sinif şagirdləri üçün istifadə edilə biləcək çox müxtəlif fəal oxu üsulları mövcuddur. Bütün bunlar biliyin və ən vacibi qavramanın inkişaf edilməsi məqsədilə mətnin sistematik olaraq sorğulanmasmı həvəsləndirir. Məlumatlar müəyyən kateqoriyalar üzrə növlərə ayrılarsa, layihə üçün kitabxanada konkret məlumatların axtarılması daha daaktivləşdirilə bilər. Mətin əvvəlcədən seçilmiş hissələrindən ilkin axtarış üçün lazım olan dərəcəni məhdudlaşdırmaq üçün istifadə edilə bilər.

Klozdan istifadə etdikdə aşağıdakılara diqqət yetirmək lazımdır:

- Çalışmadan seçilərək istifadə olunmalıdır
- Buraxılan sözlər diqqətlənəzərdən keçirilməlidir
- Həddən artıq sözlərin buraxılması çaşdırıcıdır
- Buraxılan sözlərin müxtəlifləşdirilməsi və həmin sözlərin verilmiş bir neçə söz arasından seçilə bilməsi imkanı yaratmaqla, bu üsuldan fərqli qabiliyyətlərə malik olan qruplar üçün fərqləndirilmiş formada da istifadə etmək olar.

Bundan başqa ardıcıllaşdırma effektiv bir üsuldur. Mətn hissələrə bölünür və daha sonra bu hissələr qarışdırılır. Tələbələr mətn hissələrini düzgün ardıcıllıqla yerləşdirirlər. Bunu həm də diaqramların yardımı ilə etmək mümkündür. Çalışma həm də praktik imtahanların planlaşdırılması bacarıqlarını inkişaf etdirmək baxımından da faydalı ola bilər. Məsələn, praktik təlimatlar qarışdırıla və bundan sonra düzgün ardıcıllıqla düzülmək üçün tələbəyə verilə bilər. Bu, bəzi təlimatların buraxılması ilə daha da çətinləşdirilə bilər.

Onu da qeyd etmək lazımdır ki, tələbələr mətni düzgün ardıcıllıqla yerləşdirə bilmək üçün hissələri oxumalı və başa düşməlidilər. Bu çalışma müzakirə və əməkdaşlıqla nəticələnən qrup çalışması olmalıdır.

Vurğulama üsulu: bu üsuldan ayri ayrı sözləri, ifadələri, cümlələri, paraqrafları və ya digər məlumatları seçmək üçün istifadə oluna bilər. Vurğulama dərsə hazırlaşma və işin ümumi təşkili zamanı faydalı olur.

Qeyd etmək lazımdır ki, əsas söz vəya anlayışlar vurğulanmalıdır. Rənglərin kodlaşdırılması, ifadələrin altından xətt çəkmək, rəngli flamasterlərlə seçmək və ya dairəyə almaqla işin klafikasiyası aparılır. Tələbələr metodik olaraq mətni təhlil edir və bir çalışmanı yerinə yetirmək üçün sistematik olaraq həmin mətnə müraciət edirlər.

Vurğulama digər fəal oxu üsulları ilə, adlandırma və cədvəlləşdirmə kimi üsullarla birgə işlədilməlidir ki, tələbələr öz anlayış qabiliyyətlərini tətbiq etməyə, mətnlə əlaqədar istiqamətləndirilmiş çalışmanın təşkilinə həvəsli olsunlar.

Adlandırma: diaqramların adlandırılması və ya mərhələli diaqramlarm

tamamlanmasından məlumatların əldə edilməsi üzrə fəal oxunu həvəsləndirmək məqsədi ilə istifadə oluna bilər. Başlanğıcda, hazırlanmış diaqramın üzərinə yapışdırmaq üçün yarlıqlar verilə bilər. Tələbələr bundan sonra mətni nəzərdən keçirə və diaqramlarm müvafiq yarlıqlarını tapa bilərlər. Orta məktəbin yuxarı sinif şagirdləri üçün ən məqsədə müvafiq mərhələ yarlıq yapışdırmaqla yanaşı diaqramlar barədə qısa qeydlərin verilməsi olmalıdır.

Qeyd etmək lazımdır ki, adlandırma çalışmalarından kloz və vurğulama xarakterli çalışmalardan sonra istifadə edilməsi çox faydalıdır. Oxşar qaydada, tələbələr mərhələli cədvəl, dövri diaqram qura və cədvəlləri tamamlaya bilərlər. Yadda saxlayın ki, tələbələr adlandırmadan əvvəl mətni sorğulayırlar, yəni onlar diaqramın üzərinə yarlıq yapışdıra bilmək üçün mətndən bilik və anlayışlar əldə edirlər. Həddən artıq yarlıq mürəkkəblik yaradır.

Sorğulama: bu üsulda mətni oxuduqdan sonra tələbələr digər tələbələrin cavablandırılması üçün suallar yazırlar, qruplar ya bir-birilərinə suallar verə, ya da sual və cavablar qutuya salma və daha sonra müəllim tərəfindən oxuna bilər.

Tələbələr suallar verə və ən vacibi, öz suallarına cavab verə bilmək üçün mətni diqqətlə oxumalı və başa düşməlidirlər. Vurğulanmalıdır ki, suallar yalnız mətnə əsaslanmalıdır.

***Ədəbiyyat***

1. Kimyanın tədrisində mühazirə-seminar sistemi/ Материалы VIII Бакинской Международной Мамедалиеввской Конференции по нефтехимии. 3-6 октября с.446
2. Kimya dərslərində şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi / Материалы VIII Бакинской Международной Мамедалиеввской Конференции по нефтехимии. 3-6 октября 2012, с.448-449
3. Kimya məsələlərinin həlli prosesində fənlərarası əlaqənin reallaşdırılması // Kimya məktəbdə,2013, №1 (41), s.17-25 (Abbasov M.M., Mirzəyev N.H., Əsgərov V.N.)

## АКТИВНЫЕ МЕТОДЫ ЧТЕНИЯ В ПРЕПОДАВАНИИ ХИМИИ

***Аббасов Эйюб Мирза оглы, Садыгова Ульвия Эйюб кызы,***
***Аскерова Зияфат Асиф кызы***

***Резюме***

Существует множество различных методов активного чтения, которые можно использовать для учащихся старших классов средней школы. Все это побуждает систематически расспрашивать текст с целью развития знаний и, самое главное, понимания. Поиск конкретной информации в библиотеке для проекта можно упростить, если данные отсортированы по определенным категориям. Предварительно выбранные части текста можно использовать для ограничения объема, необходимого для первоначального поиска.

## ACTIVE READING METHODS IN TEACHING CHEMISTRY

***Abbasov Eyyub Mirza, Sadıkova Ulviyya Eyyub,***
***Askerova Ziyafat Asif***

***Summary***

There are many different active reading methods that can be used for upper secondary students. All this encourages systematic questioning of the text in order to develop knowledge and, most importantly, understanding. Searching for specific information in the library for a project can be made easier if the data is sorted into specific categories. Preselected portions of the text can be used to limit the extent needed for the initial search.

***Rəyçi:dos.A.T.Məmmədova***
***Kimya kafedrasının 14 fevral 2023-cü il tarixli iclasın 11 saylı protokolu***
***Daxil olma tarix 28 fevral 2023-cü il***

*Çapa verildiyi  tarix 28.03.2023*
*Çap vərəqi: 19,2 ç.v. Tiraj :300 ədəd*
*Gəncə Dövlət Universitetinin nəşriyyatı*
*Ünvan: Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429*
*E-mail:* ***elm@gdu.edu.az,*** *(+99422) 266 01 88*